**525-ci qəzet.** - 2024. - 17 may. - № 86. - S. 15.

# COP29 həm ekologiyaya, həm də sülhə böyük töhfə olacaq

**Sevinc Qarayeva**

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un bu il Azərbaycanda keçirilməsi ilə bağlı qərar COP28-in ötən il dekabrın 11-də Dubayda keçirilən plenar iclasında qəbul olundu. COP (Conference of Parties) abreviaturunun ingilis dilindən tərcüməsi Tərəflər Konfransı deməkdir. BMT İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası insanın iqlim sisteminə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədilə 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış sazişdir. Tərəflər Konfransı İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının icrasına nəzarət edən ali qərarverici orqandır. Burada tərəflər Konvensiyaya üzv olan 198 ölkədir. Əgər tərəflərin fərqli qərarı olmazsa, COP hər il keçirilir. COP-un ilk tədbiri 1995-ci ilin martında Berlində baş tutub, katibliyi Bonn şəhərində yerləşir. COP-a sədrlik rotasiya əsasında BMT-nin 5 regionunun - Afrika, Asiya, Latın Amerikası, Karib Hövzəsi və Avropa (Mərkəzi, Şərqi, Qərbi və digər) ölkələrinə keçir. Həmçinin bu regionlardakı qrup ölkələri arasında da sədrliklə bağlı növbələşmə mövcuddur. Azərbaycanın təşkilata sədrliyinə dair qərar da məhz Şərqi Avropa Qrupu ölkələrinin yekdil rəyi əsasında verilib.

COP29-a ev sahibliyi üçün Azərbaycanla yanaşı, Ermənistan və Bolqarıstan da namizədliklərini irəli sürüb. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Baş nazirinin Aparatı arasında aparılmış birbaşa danışıqlar nəticəsində ötən il dekabrın 7-də verilmiş birgə bəyanatda elan olunub ki, Ermənistan Azərbaycanın xeyrinə öz namizədliyini geri götürüb. Bundan sonra Bolqarıstan da öz namizədliyi ilə bağlı eyni addımı atıb.

COP bir sıra iqlim dəyişikliyi məsələlərini müzakirə etmək və danışıqlar aparmaq üçün dünya liderlərini, hökumət rəsmilərini, alimləri, QHT-ləri və digər maraqlı tərəfləri bir araya gətirən böyük tədbirdir.

COP tədbirlərində, adətən, gündəlik müəyyən edilir və tədbir zamanı müzakirələrdən sonra yekun sənəd qəbul edilir. COP-a əvvəlki illərdə müxtəlif ölkələrin prezidentləri və digər rəsmi şəxslər dəvət edilib. Ötən il Dubayda keçirilən COP28-ə ABŞ Prezidenti Co Bayden dəvət alsa da, səbəb göstərmədən qatılmayıb, amma tədbirə Böyük Britaniya Kralı III Çarlz, BMT-nin Baş Katibi Antonio Quterreş, ABŞ Prezidentinin iqlim üzrə xüsusi nümayəndəsi Con Kerri, Hindistanın Baş naziri Narendra Modi, Fransa Prezidenti Emmanuel Makron olub.

Tədbirə həmçinin ABŞ vitse-prezidenti Kamala Harris, Bill və Melinda Qeyts Fondunun həmsədri Bill Qeyts, Avropa Komissiyasının sədri Ursula fon der Leyen, Almaniya kansleri Olaf Şolz qatılıb.

COP 27-də isə ABŞ Prezidenti Co Bayden, BMT-nin Baş Katibi Antonio Quterreş və digər şəxslər iştirak edib. COP 29-da isə iştirak edəcək rəsmilərin siyahısı açıqlanmayıb. Amma Prezident İlham Əliyev Azərbaycana səfər edən dövlət adamlarına və rəsmi məktub göndərilmiş şəxslərə iştirakla bağlı məktub göndərib.

Onu da qeyd edək ki, Azərbaycanda keçiriləcək COP29-un gündəliyi hələ məlum deyil. Gündəliyin 2024-cü ilin mayında Almaniyada keçiriləcək Petersberq İqlim Dialoqu zamanı müəyyən olunacağı gözlənilir.

2023-cü ildə Dubayda keçirilən COP28 tədbirində rəsmi rəqəmlərə görə, 70 min xarici qeydiyyatdan keçib. Qeyri-rəsmi rəqəmlərə görə, bu tədbirə qatılanların sayı 100 mindən çox olub.

Rəsmi olmayan xəbərlərə görə, 97,372 nümayəndə şəxsən COP28-də iştirak etmək üçün qeydiyyatdan keçib və bu, tarixdəki ən çox iştirakçının qatıldığı COP tədbiri olub.

Bu rəqəm 2022-ci ildə Misirin Şarm Əl-Şeyx şəhərində keçirilən COP27-yə qatılanlardan demək olar ki, iki dəfə artıqdır. Bundan başqa COP28-ə 3,074 nəfər virtual olaraq qoşulub və ümumi iştirakçı sayı 100 mini keçib. Azərbaycana da təqribən 70-80 min xarici qonağın gələcəyi gözlənilir.

Millət vəkili Vahid Əhmədovun sözlərinə görə, COP29-un Azərbaycanda keçirilməsinin ölkəmizin dünyada layiqli təmsilçiliyinə böyük töhfə verəcək: "Azərbaycan da sözügedən məsələ ilə əlaqədar bir sıra layihələr həyata keçirib və bundan sonra da alternativ enerjiyə keçidlə bağlı layihələrin icrası davam etdiriləcək. O baxımdan, Azərbaycan ekoloji cəhətdən təmiz məhsul istehsal etmək üçün yaşıl enerjiyə diqqətin artırılmasına töhfə və dəstək verən ölkələr sırasındadır".

Millət vəkili vurğulayıb ki, qeyd olunan sahəyə verilən önəmin bariz nümunələrindən biri də Azərbaycanın bu il COP29-a ev sahibliyi etməsidir: "Ölkəmizin beynəlxalq tədbirlərə ev sahibliyi etmək təcrübəsi kifayət qədər böyükdür və belə tədbirlər hər zaman yüksək səviyyədə təşkil olunub".

V.Əhmədov bildirib ki, COP29 kimi mötəbər tədbirin Azərbaycanda keçirilməsi burada sabitliyin möhkəm təməllər üzərində qurulduğunu bir daha sübut edir: "Bütün bunlarla yanaşı, ölkəmizin iqlimlə əlaqədar əhəmiyyətli bir tədbirə ev sahibliyi etməsi, Azərbaycanın dünyada bir çox fərqli sahələrdə tanıdılmasına və layiqli təmsilçiliyinə böyük töhfələr verəcək".

Millət vəkili Ceyhun Məmmədovun dediyinə görə, COP29 beynəlxalq səviyyəli vacib tədbirlərdən biridir. Əvvəlki dövrlərdə Azərbaycan bir çox mühüm tədbirlərə ev sahibliyi edib: "Bu baxımdan COP29-un Azərbaycanda keçirilməsi ölkəmizin nüfuzu üçün olduqca əhəmiyyətlidir. Azərbaycan iqlim dəyişikliyi məsələsi ilə bağlı davamlı olaraq dünyada bu istiqamətdəki təşəbbüslərə öz töhfəsini verir. Dünya və dünya iqlimi hazırkı dövrdə çox ciddi imtahanlarla üz-üzədir. Dünyanın bütün dövlətləri iqlim dəyişikliyi istiqamətindəki qanunvericiliyə o qədər də əməl etmirlər. Bu anlamda COP29-a ev sahibliyinin Azərbaycana verilməsi təsadüfi deyil. Çünki Azərbaycanın təcrübəsi, cənab Prezidentin siyasəti ətrafında həyata keçirilən tədbirlər, atılan addımlar ölkəmizə olan inamı daha da artırır. Müxtəlif dövlətlərin ölkəmizlə bağlı bu istiqamətdə mühüm qərarlar qəbul etməsinə də mühüm töhfə verir. Bütün beynəlxalq tədbirlərdə olduğu kimi, bu tədbirdə də Azərbaycan öz sözünü deyəcək. Azərbaycan beynəlxalq tədbirlərin keçirilməsi baxımından nümunədir".

Millət vəkili Fatma Yıldırım deyib ki, hazırda dünyanın bir sıra bölgələrində münaqişələr, müharibələr davam edir. Bu qanlı toqquşmalar dünyamız üçün fəlakətlərə səbəb olur. Bəşəriyyətin gələcəyi naminə qarşıdurmalara son qoymaq və sülhə nail olmaq üçün bütün imkanlardan istifadə olunmalıdır. Bu mənada, Azərbaycanın noyabr ayında ev sahibliyi edəcəyi COP29 tədbiri yaxşı fürsət ola bilər: "Azərbaycan COP29 zamanı dünyada hərbi əməliyyatların dayandırılmasının tərəfdarıdır. Tarixə nəzər salsaq görərik ki, bütün irimiqyaslı qlobal tədbirlər həmişə barışıq fəlsəfəsinə əsaslanıb. Məsələn, Olimpiya hərəkatı ilə müharibə ideyaları bir-birinə tamam ziddir. Olimpiadalar zamanı hətta münaqişə şəraitində olan ölkələrin belə nümayəndələri idman yarışlarına çıxaraq qüvvələrini sınayırlar. Qalib mütləq qaydada rəqibinin əlini sıxır. Bu, sağlam mübarizədir və bütün dünyada barışıq yaratmağa xidmət edir".

Millət vəkilinin sözlərinə görə, ölkəmizin ev sahibliyi edəcəyi COP29-da əhatə dairəsi baxımından BMT-nin ən böyük tədbirlərindən biri sayılır. Tədbirə qatılmaq üçün ölkəmizə on minlərlə qonağın gələcəyi gözlənilir. Eyni zamanda, tədbirdə iştirakla bağlı Prezident İlham Əliyevin adından BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf ölkələrin dövlət və hökumət başçılarına dəvət məktubları göndərilib. Beləliklə, COP29 ərəfəsində dünyanın nəzərləri Azərbaycana yönələcək. İqlim dəyişikliyi kimi aktual çağırışın müzakirə olunacağı tədbir zamanı müharibələrin dayandırılması da mümkün və tam realdır. Əsas məqsəd və birgə hədəflərimiz dünyanı hər cəhətdən daha təhlükəsiz etmək olmalıdır: "Azərbaycanın COP29 tədbiri ilə bağlı sülh çağırışı etməsi heç də təsadüfi deyil. Dünyada sülhün zəruriliyini Azərbaycan çox yaxşı anlayır. Çünki uzun illər ölkəmiz və xalqımız Ermənistanın işğalçı siaysətindən əziyyət çəkib. Müharibənin ən ağır fəsadlarını yaşayan Azərbaycan ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdikdən sonra müharibə səhifəsini birdəfəlik bağlamaq və gələcəyə baxmaq əzmindən çıxış edir. Ölkəmiz 44 günlük müharibə başa çatandan sonra işğaldan təmizlənən ərazilərində öz gücünə quruculuq-bərpa işlərinə başladı və məğlub Ermənistana beş bənddən ibarət sülh paketi təqdim etdi. Həmin paket sırf beynəlxalq hüquq normalarına istinad olunmaqla hazırlanıb. Azərbaycan o mövqedən çıxış edir ki, 44 günlük müharibənin və lokal xarakterli antiterror tədbirlərinin nəticəsində yaranan yeni reallıqlar regonda sülh, sabitlik və etimad quruculuğu üçün geniş imkanlar açıb. Bundan maksimum dərəcədə istifadə olunmalıdır. Sülh gündəliyinə sadiq qalan Azərbaycan tənzimləmə prosesinin irəliləməsi üçün bütün platformalarda konstruktiv yanaşmalar sərgiləyir. Azərbaycan bu gün də sülh gündəliyinə sadiqliyini nümayiş etdirir. İqlim dəyişikliyinə qarşı mübarizə ilə yanaşı, Azərbaycan COP29-un sülh sahəsində növbəti uğur hekayəsinə və sülh konfransına çevrilməsi üçün əlavə səylər göstərir və bundan sonra da göstərəcək".